# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 012 (7422)

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

13 fevral 2026-cı il.
Qiyməti 1 manat

## Azərbaycan Televiziyası – 70

7

# Rəqəmsal Azərbaycan necə qurulur?



3

*Prezident İlham Əliyev əsas məqamları açıqladı*

# Kölgədən hakimiyyətə: dövlət çevrilişi planının anatomiyası



4

## Antibiotiklər ildə 5 milyon insan öldürür



7

## Erkən nikahların səbəbləri və nəticələri



8

## İtinə və pişiyinə ad günü keçirənlərə...



6

## RATİFİKASİYA: görünməyən, lakin real təhlükəyə qarşı QALXAN



5

## HƏLLEDİCİ "DÖYÜŞƏ" HAZIRLIQ




4

# Azərbaycan-ABŞ: strateji tərəfdaşlıq üçün YENİ MƏRHƏLƏ!

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 11-də Ərəb Parlamentinin prezidenti Məhəmməd Əhməd Əl-Yammahinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və mülki işçilərinin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti işçilərinin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***Beynəlxalq birliyin ən fəal üzvlərindən olan Azərbaycan regionda və dünyada mehriban qonşuluq siyasəti yürüdərək, böyük dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığı daha da möhkəmləndirir. Bu gün Azərbaycanın çoxtərəfli və balanslaşdırılmış xarici siyasət kursunda dünyanın ən qüdrətli ölkələrindən olan ABŞ münasibətlərinin möhkəmləndirilməsi xüsusi prioritet təşkil edir. Rəsmi Bakı ABŞ-la əməkdaşlığın inkişafına hər zaman xüsusi yer verir.***



*Prezident İlham Əliyev: "Bu gün Azərbaycan ilə ABŞ arasındakı münasibətlər tamamilə yeni mərhələyə qədəm qoyur"*

Fevralın 10-da Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vensin ölkəmizə rəsmi səfəri əlaqələrin inkişafına söykənir. Bakıda "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanma mərasimi keçirilib.





Sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vens imzalayıblar.

Azərbaycan və ABŞ Trans-Xəzər Nəqliyyat Dəhlizini (Orta Dəhliz) əsas götürərək quru, dəniz və hava nəqliyyatı infrastrukturunun inkişafı, enerji və data bağlantısı, ticarət və tranzitin asanlaşdırılması, gömrük nəzarəti və sərhəd keçidi, beynəlxalq multimodal logistika və digər əlaqəli sahələrdə əməkdaşlıq yolu ilə regional bağlantıları təşviq etmək üçün birgə işləmək niyyətindədir. Bu, "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya"da öz əksini tapıb.

Sənədə əsasən, tərəflər Vaşinqton Sülh Zirvə Görüşünün Bəyannaməsinə uyğun olaraq iştirakçı ölkələrə beynəlxalq və ölkədaxili bağlantı üçün qarşılıqlı faydaları təmin etməklə, Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin edəcək və regionun beynəlxalq ticarət və tranzit potensialını reallaşdıracaq multimodal bağlantı layihəsi kimi Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun (TRIPP) əhəmiyyətini qəbul edirlər.

### "BİZ ÖLKƏLƏRİMİZ ARASINDA MÜNASİBƏTLƏRƏ, XÜSUSİLƏ SON ALTI AYDA BAŞ VERƏNLƏRƏ YÜKSƏK DƏYƏR VERİRİK"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vens ilə geniş tərkibdə görüşü keçirilib.

Prezident İlham Əliyev görüş zamanı bildirib ki, Amerika Birləşmiş Ştatlarının Vitse-prezidentinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmək bizim üçün böyük şərəfdir: "Biz ölkələrimiz arasında münasibətlərə, xüsusilə son altı ayda baş verənlərə yüksək dəyər veririk. Bu müddət bizim tərəfdaşlığımız üçün tamamilə möhtəşəm olmuşdur. Son altı ayda mənim Prezident Trampla iki görüşüm olub. Bu görüşlər və sizin Azərbaycana rəsmi səfəriniz həqiqətən tərəfdaşlığımızı gücləndirmək üçün qarşılıqlı maraq və qarşılıqlı iradənin olduğunu nümayiş etdirir. Bu gün tərəfdaşlığımız rəsmi şəkildə daha yüksək səviyyəyə qalxacaq. Fəaliyyətin həcmi və komandalarımız arasında qarşılıqlı əlaqələr həqiqətən yüksəksəviyyəli tərəfdaşlıq ruhunu nümayiş etdirir".

ABŞ-ın Vitse-prezidenti sülh gündəliyinin irəli aparılmasında Prezident İlham Əliyevin nümayiş etdirdiyi liderliyi vurğulayıb. Dövlətimizin başçısı Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməsində Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın xüsusi roluna toxunub.

### "AZƏRBAYCAN ÖZ TƏBİİ QAZ EHTİYATLARI İLƏ 16 ÖLKƏNİN ENERJİ TƏHLÜKƏSİZLİYİNƏ TÖHFƏ VERİR"

Cey. Di. Vens Azərbaycanda hökm sürən tolerant mühiti qeyd edərək, ölkəmizdə müxtəlif dinlərin nümayəndələrinin bir ailə kimi sülh və dostluq şəraitində yaşadığını vurğulayıb. Söhbət zamanı TRIPP nəqliyyat dəhlizinin inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycanla ABŞ arasında siyasət, iqtisadiyyat, ticarət, yüksək texnologiyalar, süni intellekt, data mərkəzlərinin yaradılması və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunulub və qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunub. "Bu gün Azərbaycan ilə ABŞ arasındakı münasibətlər tamamilə yeni mərhələyə qədəm qoyur". Bu barədə Prezident İlham Əliyev ABŞ-ın Vitse-prezidenti Cey. Di. Vens ilə mətbuata birgə bəyanatında bildirib. "Hörmətli qonaqla imzaladığımız sənəddə bizim əməkdaşlığımızın müxtəlif istiqamətləri var. Biz, həmçinin təhlükəsizliklə bağlı əməkdaşlığımızı davam etdirəcək, antiterror əməliyyatlarında əməkdaşlıq edəcəyik. Biz, həmçinin enerji təhlükəsi ilə bağlı məsələlərdə işbirliyi quracağıq. Hazırda Azərbaycan öz təbii qaz ehtiyatları ilə 16 ölkənin enerji təhlükəsizliyinə töhfə verir, onlardan 11-i NATO-nun üzvləridir və ABŞ-ın müttəfiqləridir", - deyə dövlətimizin başçısı vurğulayıb.

ABŞ-ın Azərbaycanla ikitərəfli əməkdaşlığa olan marağı yalnız ölkəmizin strateji-coğrafi mövqeyə malik olması və zəngin karbohidrogen ehtiyatları ilə deyil, həm də möhkəm siyasi sabitliyə, demokratik inkişafa, beynəlxalq birliyə öz töhfəsini verməsi ilə də bağlıdır. Azərbaycan beynəlxalq aləmdə sülhsevər, demokratik prinsiplərin inkişafına xüsusi önəm verən, irimiqyaslı infrastruktur layihələrin reallaşdırılmasında zəngin təcrübəsi olan bir ölkə kimi tanınır.

### "TRAMP MARŞRUTU NƏİNKİ AZƏRBAYCANIN İKİ HİSSƏSİNİ BİRLƏŞDİRƏCƏK, EYNİ ZAMANDA, ÇOX ETİBARLI, TƏHLÜKƏSİZ QAYDADA BÖYÜK DAŞIMALAR DƏHLİZİNƏ ÇEVRİLƏCƏK"

Müasir dövrdə Azərbaycan-ABŞ münasibətləri də yüksələn xətt üzrə inkişaf edir. Bu iki dövlətin strateji müttəfiqliyinin getdikcə yaxşılaşması, əməkdaşlığın genişlənməsi və əlaqələrin möhkəmlənməsi bütövlükdə Cənubi Qafqazda sülhün, təhlükəsizliyin, qlobal enerji və kommunikasiya layihələrinin həyata keçirilməsi baxımından çox böyük əhəmiyyət kəsb edir.

Siyasi və təhlükəsizlik, eləcə də enerji sahəsində də əməkdaşlıq sahəsində uğurlar əldə olunub. ABŞ və Azərbaycan arasında münasibətlərin pozitiv keşmişi və bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün böyük perspektivlər mövcuddur. Ölkələr arasında münasibətlərin siyasi, iqtisadi, ticarət, təhlükəsizlik, enerji və digər sahələrdə əməkdaşlıq üçün böyük perspektivləri var. "Tramp marşrutu nəinki Azərbaycanın iki hissəsini birləşdirəcək, eyni zamanda, çox etibarlı, təhlükəsiz qaydada böyük daşımalar dəhlizinə çevriləcək. O, Azərbaycan ərazisi, Ermənistan vasitəsilə Asiyanı Avropa ilə birləşdirəcək və digər qonşular da burada iştirak edəcəklər". Bu barədə Prezident İlham Əliyev ABŞ-ın Vitse-prezidenti Cey. Di. Vens ilə mətbuata birgə bəyanatında bildirib. Dövlətimizin başçısı deyib ki, bu da, ümumiyyətlə, regionda sülhü gücləndirəcək.

ABŞ-ın Vitse-prezidenti Cey. Di. Vens Bakıda Prezident İlham Əliyevlə birgə bəyanatla çıxış edərkən Azərbaycanın beynəlxalq arenadakı artan nüfuzuna xüsusi diqqət çəkib. Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampla yanaşı, həm strateji müttəfiqi Türkiyə, həm də ABŞ-ın Yaxın Şərqdə əsas tərəfdaşlarından biri olan İsraillə səmimi və etibarlı münasibətlərə malik olan nadir dünya liderlərindəndir. Bu bəyanat Azərbaycanın xarici siyasətinin balanslı və praqmatik mahiyyətini əks etdirməklə yanaşı, ölkəmizin müxtəlif geosiyasi mərkəzlər arasında etibarlı körpü rolunu oynadığını da nümayiş etdirir. Prezident İlham Əliyevin uzaqgörən və prinsipial siyasəti nəticəsində Azərbaycan qlobal və regional proseslərdə etibarlı tərəfdaş, dialoqa açıq və sabitləşdirici aktor kimi qəbul olunur.

Hazırda iki ölkə arasında əməkdaşlıq yeni mərhələyə qədəm qoyub. Bu da ölkəmizin beynəlxalq aləmdəki mövqelərini daha da artırır, Azərbaycanın dünyanın inkişaf etmiş dövlətləri ilə qarşılıqlı əməkdaşlığa malik olduğunun bir daha göstərir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Rəqəmsal Azərbaycan necə qurulur?

## *Prezident İlham Əliyev əsas məqamları açıqladı*



***Xəbər verildiyi kimi, fevralın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə keçirilib.***

Dövlət başçısı müşavirədə bu sahədə görülən işlər və nəzərdə tutulan layihələrlə bağlı maraqlı məqamlara toxunaraq qeyd edib ki, bu məsələ bizim gələcək inkişafımızı böyük dərəcədə şərtləndirəcək: "Dünyada gedən meyillər, trendlər bəllidir. Bu gün süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması, rəqəmsallaşma ilə bağlı islahatlar faktiki olaraq ölkələrin gələcək inkişafını müəyyən edir. Azərbaycanda bu istiqamətdə müəyyən işlər görülüb, bu barədə bu gün danışılacaq. Ən önəmlisi gələcək fəaliyyətimizdə bu məsələni əsas prioritetlər siyahısına daxil etməyimizdir".

Dövlət başçısı enerji sektorunda görülmüş işlərə toxunarkən qeyd edib ki, bu sahə kommunikasiya sistemlərinin də inkişafına təkan verib: "Bizim xarici tərəfdaşlarla yaşıl enerji kabellərinin çəkilişi ilə bağlı müvafiq sənədlər imzalanıb və biz elektrik enerjisinin bir qismini ixrac edəcəyik. Ancaq data mərkəzlərinin yaradılması da dediyim kimi, böyük enerji gücləri tələb edir.

Fiber-optik bağlantılarla əlaqədar qeyd etdiyim kimi, enerji infrastrukturunun yanında da bu kabellər də çəkilib. Hazırda bizi Xəzər dənizinin Şərq sahilləri ilə birləşdirəcək fiber-optik kabelin çəkilişi layihəsi icra edilir, ümid edirəm ki, bu il başa çatacaq. Beləliklə, Şərqə doğru bağlantılar təmin ediləcək, Qərbə doğru isə yeni bağlantılar üzərində işləməliyik. Təbii ki, bugünkü müşavirədə müzakirə ediləcək məsələlərin həlli üçün bu da başlıca məsələlərdən biridir".

Azərbaycan Prezidenti elektron hökumətlə bağlı da maraqlı açıqlamalar verib: "Son illər ərzində müxtəlif dövlət qurumları-nazirliklər və digər dövlət qurumları tərəfindən müxtəlif platforma və tətbiqlər işlənib hazırlanmışdır. Bu işin artıq koordinasiya şəklində aparılması üçün hesab edirəm ki, buna da ehtiyac olmayacaq və yaradılmış platforma və tətbiqlər tədricən ləğv edilməlidir, hansı müddət ərzində, onu indi mənə təkliflər təqdim ediləndə təklif edərsiniz. Dövlət xidmətləri "mygov" üzərindən həyata keçirilməlidir - yeni vahid mərkəzdən. Hər kəs bunu bilməlidir - həm dövlət qurumları, həm vətəndaşlar. Bu, vətəndaşlar üçün də çox böyük üstünlük təmin edəcək. Vətəndaşa lazım olan bütün xidmətlər bir ünvandan göstərilməlidir. İndi buna nə qədər vaxt lazımdır, əlbəttə ki, bunu siz mənə bildirərsiniz. Eyni zamanda, bu gün mövcud olan platformaların üstünlükləri, əldə edilmiş təcrübə və bu platformaların işlənməsində iştirak etmiş şəxslər, kadrlar da ümumi işə cəlb edilməlidir. Yəni mən əldə edilmiş nəticələri qiymətləndirirəm, amma, eyni zamanda, bu gün vaxt gəlib çatıb ki, bu, vahid mərkəzdə birləşsin".

Dövlət başçısı bu sahədə kadr bazası ilə bağlı da fikirlərini deyib: "Kadr hazırlığına gəldikdə, bu, əsas vəzifələrdən biridir. Son vaxtlar bu istiqamətdə müəyyən işlər görülür. Biz öz təhsil sistemimizdə bu sahəyə daha böyük diqqət göstərməliyik. Həm Azərbaycanda fəaliyyət göstərən ali məktəblərdə, eyni zamanda, dövlət xətti ilə xaricə göndərilən tələbələr bu ixtisas üzrə peşəkarlığı artırmalıdırlar. Ona görə nəzərə alsaq ki, bu, uzunmüddətli proses olacaq və bu proses ancaq və ancaq genişlənəcək, gələcəkdə bu sahədə kadrlara böyük ehtiyac olacaq. Təbii ki, orta məktəblərdə şagirdlərə ilkin biliklərin aşılanması üçün tədris proqramına da müəyyən dəyişikliklər edilməlidir".

Ölkə rəhbəri bildirib ki, süni intellektin tətbiqi dövlət qurumlarında geniş vüsət almalıdır: "Bu gün bu sahədə aparıcı ölkələrdə bu belədir. Hətta mənə verilən məlumata görə, bu sahədə inkişaf etmiş bəzi ölkələrdə dövlət məmurlarının gündəlik fəaliyyətinə də süni intellekt agentləri, - belə adlandırılır, - kömək göstərir. Çünki burada hər hansı bir qərarın düzgün olub-olmaması ilə bağlı süni intellekt təbii ki, yardımçı ola bilər. Ona görə bu sistemə də baxmaq lazımdır və rəhbər orqanlarında təmsil olunan şəxslər süni intellektdən geniş istifadə etməlidirlər.

Özəl sektora gəldikdə, burada eyni yanaşmanı təmin etmək üçün dəstək mexanizmləri işlənməlidir. Biz özəl sektora bu sahədə hansı formada daha böyük diqqət göstərilməsini təşviq edə bilərik, bu barədə də təkliflər veriləcək.

Kibertəhlükəsizlik üzrə əsas hədəflər müəyyən edilməlidir. Bu sahə də kritik sahələrdən biridir. Biz keçən il çox mütəşəkkil və aqressiv kiberhücuma məruz qalmışıq. Biz onun mənbəyini də bilirik və lazımi tədbirlər də görülmüşdür ki, özümüzü bu ciddi problemlərdən qoruya bilək. Ona görə bu sahəyə ciddi diqqət göstərilməlidir. Bizdə artıq fəaliyyət göstərən Kibertəhlükəsizlik Mərkəzi var, onun işi daim diqqət mərkəzində olmalıdır".

Göründüyü kimi, bu sahədə ölkəmizdə çox ciddi layihələr həyata keçirilir və proqramlar icra olunur. Nəticədə Azərbaycan dünyanın informasiya və kommunikasiya sistemlərinin, həmçinin kibertəhlükəsizliyin ən yüksək səviyyədə olduğu, elektron hökumətin işinin daha genişç miqyasda təşkil olunduğu ölkələrdən biridir. Paralel olaraq ölkədə internetin əhatə dairəsi və sürətinin artırılması da təmin olunub.

"Onlayn Azərbaycan" layihəsi uğurla başa çatdırılıb. Layihə başlananda ölkədə internetin orta sürəti təxminən 12 meqabit/saniyə idisə, bu gün 90 meqabit/saniyədir. Dövlətə məxsus şirkətlərdə bu rəqəm 150 meqabit/saniyədir. İlin sonuna qədər biz bu rəqəmi 200 meqabit/saniyəyə çatdırmağı planlaşdırılır və bu gün Azərbaycanın elə bir ucqar nöqtəsi yoxdur ki, orada genişzolaqlı internet təqdim edilməsin.

"Mygov" platformasından istifadə edənlərin sayı 2,5 milyondur. "SİMA" Biometrik İmzanın təqdim edilməsi ilə son 3 il ərzində 4 milyon istifadəçi artıq bu imzadan istifadə edir. "SİMA"nın təqdim edilməsi dövlət xidmətləri ilə yanaşı, özəl şirkətlərin, xüsusilə də bankların işini bir xeyli asanlaşdırıb. Məsələn, bu gün bizim vətəndaşlar bankda hər hansı bir depozit hesabın açılması və yaxud da artırılmasını- istənilən bank əməliyyatlarını banka getmədən aplikasiyalar üzərindən tam şəkildə həyata keçirə bilirlər. Digər sahələrdə də belədir. Bir çox notarius əməliyyatları onlayn formada həyata keçirilir.

Son illərdə xüsusilə dəqiq elmlər və informasiya texnologiyaları sahəsinə diqqət artıb. Bu sahədə Elm və Təhsil Nazirliyi tərəfindən qısamüddətli kursların təşkili təmin edilmişdir ki, təxminən 16 minə yaxın insan bu kurslardan keçmişdir.

Beləliklə, ölkəmizin informasiya və kommunikasiya texnologiyaları sahəsindəki qlobal tendensiyalara sürətlə uyğunlaşdığı aydın görünür. Gələcəyin dünyası bu baza üzərində qurulacağı üçün Azərbaycan da bu sahədə ciddi işlər həyata keçirir. Prezident İlham Əliyevin qeyd etdiyi məqamları nəzərdən keçirdikdə ölkəmizin gələcəkdəki inkişafının bazasının indidən necə qoyulduğunu aydın şəkildə görmək olur.

***Elçin Bayramlı***

# "Azərbaycan qlobal miqyaslı qovşaq dövlət səviyyəsinə yüksəlir"

***"Prezident İlham Əliyevin elan etdiyi və Ermənistan ərazisindən keçərək Asiyanı Avropa ilə birləşdirən bu yeni nəqliyyat arteriyası, sadəcə bir logistik marşrut deyil, Cənubi Qafqazın son yüz ildə formalaşmış mürəkkəb geosiyasi xəritəsini kökündən yeniləyən strateji bir "master-plan"dır. Bu təşəbbüsün regiondakı balansı dəyişmə trayektoriyası ilk növbədə Azərbaycanın mərkəzi aktor statusunu "region dövləti" səviyyəsindən qlobal miqyaslı "qovşaq dövlət" (hub state) səviyyəsinə yüksəldir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Tural İsmayılov deyib.***



Onun sözlərinə görə, Asiyadan gələn yük axınının Ermənistan üzərindən keçərək Türkiyəyə və oradan Avropaya çatması, Cənubi Qafqazın onilliklərdir əziyyət çəkdiyi "parçalanmışlıq" və "izolyasiya" sindromunu tamamilə aradan qaldırır: "İqtisadi müstəvidə bu, regionda yeni bir asılılıq deyil, qarşılıqlı maraqlara söykənən dərin inteqrasiya zənciri yaradır. Ermənistanın Azərbaycanın təqdim etdiyi bu tranzit imkanlarından yararlanması onu illərdir boğulduğu iqtisadi dalandan çıxararaq qlobal bazarlara bağlayır, lakin bu eyni zamanda İrəvanı regionun sabitliyində və Azərbaycanın logistik zəncirinin təhlükəsizliyində birbaşa maraqlı və cavabdeh tərəfə çevirir. Bu proses tarixdə "ticarət vasitəsilə sülh" modelinin ən parlaq nümunəsi kimi çıxış edərək, revanşist ideyaların iqtisadi rifah qarşısında mənasızlaşmasını təmin edir. Uzunmüddətli sülhün möhkəmlənməsinə gəlincə, bu marşrut regionu böyük güclərin rəqabət meydanından birgə maraqların qovuşduğu təhlükəsizlik zonasına çevirir. Avropa və Asiyanın nəhəng iqtisadiyyatlarının bu yola olan ehtiyacı Cənubi Qafqazdakı sülhü beynəlxalq zəmanət altına alır, çünki bu yola yatırılan milyardlarla dollarlıq qlobal kapital istənilən hərbi eskalasiyanı investorlar üçün "qırmızı xətt"ə çevirir. Regional əməkdaşlığın genişlənməsi isə artıq sadəcə siyasi istək deyil, texniki zərurət halına gəlir; gömrük, tarif və təhlükəsizlik protokollarının sinxronlaşdırılması Bakı və İrəvanı mütəmadi dialoqa məcbur edən institusional bir çərçivə yaradır. Azərbaycanın bu təşəbbüsü Ermənistanı təcavüzkar tərəfdən çıxarıb regional payçıya çevirmək üçün unikal bir "yumşaq güc" alətidir ki, bu da regionda sülhün sadəcə kağız üzərində deyil, qatarların hərəkətində və insanların rifahında yaşamasını təmin edir".

***Ziya Hikmətoğlu***

# Kölgədən hakimiyyətə: dövlət çevrilişi planının anatomiyası

ANALİZ

***2025-ci ildə Azərbaycan siyasi mühiti ciddi bir olayla sarsıldı, Dövlət Təhlükəsizlik Xidməti (DTX) ölkənin uzun müddət nüfuzlu siyasi simalarından biri hesab edilən Ramiz Mehdiyev və onun ətrafındakı bir qrupun "dövlət çevrilişi planı" hazırladığı barədə rəsmi məlumat yaydı. Bu iddialar rəsmi qurum tərəfindən bir sıra ağır cinayət maddələri, o cümlədən dövlətə xəyanət və ölkəmizin konstitusiya quruluşunu zorla dəyişdirmə cəhdi ilə təsvir edildi. Rəsmi məlumatlara görə, Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyev 2025-ci ilin avqust-sentyabr aylarında "Dövlət idarəetmə sisteminin yenidən qurulması haqqında təkliflər" adlı bir yazılı plan hazırlayıb və bu planı özünün xarici kanalları vasitəsilə tanış olduğu bir xarici dövlətin xüsusi xidmət orqanlarına göndərib.***



Plana görə, Mehdiyev planlaşdırdığı çevriliş uğrunda xarici xüsusi xidmətlərlə əməkdaşlıq etməyi və hakimiyyəti zorla ələ keçirməyi nəzərdə tuturdu. Bu fəaliyyət rəsmi olaraq dövlətə xəyanət və konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönəlmiş hərəkətlər kimi qiymətləndirilib. DTX-nin açıqlamasında həmçinin Mehdiyevin 17 milyon manatdan artıq pul vəsaitini cinayət yolu ilə əldə etdiyi və leqallaşdırdığı iddia edilir ki, bu da məsələnin yalnız siyasi deyil, eyni zamanda maliyyə cinayətləri aspekti də daşıdığını göstərir. DTX-nin verdiyi məlumata görə, yazılı planın xarici xüsusi xidmət orqanlarına göndərilməsi texniki olaraq qeydə alınıb və bu, təhlükəsizlik orqanlarına məlum olub. Sentyabrın 27-də planın ilkin variantı müəyyən şəxslərə təqdim edilib və oktyabrın 3-də final redaktəsi xarici tərəfə göndərilib. Bütün bu fəaliyyətlər DTX tərəfindən izlənilib və qeydə alınıb. Bu səbəbdən Mehdiyevə qarşı cinayət işi başlanıb və onun ev dustaqlığının müddəti uzadılıb. Rəsmi açıqlamalarda bu addımlar Azərbaycanın suverenliyinin və dövlət təhlükəsizliyinin qorunması üçün atılan zəruri tədbirlər kimi təqdim edilib.

Bu hadisə təkcə daxili siyasət məsələsi deyil, onun arxasında daha geniş geosiyasi kontekst dayanır. 2024-cü ilin sonunda Rusiya tərəfindən vurulan AZAL sərnişin təyyarəsi ilə bağlı diplomatik gərginliyə görə Bakı ilə Moskva arasında münasibətlər ciddi şəkildə soyuyub. Bu, iki ölkə arasında münasibətləri yenidən qiymətləndirmək məcburiyyətinə gətirib. Bu hadisə ilə eyni zaman kəsiyində Mehdiyev çevriliş planını müəyyən xarici kanallar vasitəsilə Rusiyaya təqdim edib. Moskva isə gərginliyi azaltmaq, həm də planın perspektivsiz olduğunu anlayıb bundan öz xeyirinə istifadə etmək niyyəti ilə məsələni Azərbaycan tərəfinə bildirib.

Müstəqil ekspertlər bu hadisəni yalnız bir çevriliş cəhdi kimi deyil, həm də Azərbaycan siyasətindəki nüfuz mərkəzlərinin dəyişməsi və dövlət daxilində klan mübarizəsi kimi də şərh edirlər. Araşdırmalara görə, bu hadisə yalnız çevriliş iddiasından ibarət deyil, eyni zamanda bir "köhnə siyasi elitadan yeni nəsil hakimiyyət strukturuna keçid" mübarizəsinin də əlaməti ola bilər. Təhlillər göstərir ki, Mehdiyev tutduğu vəzifəni itirməyi qəbul edə bilməyib, təsir imkanlarının zəifləməsi də ona nüfuz mübarizəsini davam etdirmək iştahasını artırıb. Bu olay ictimaiyyətdə müxtəlif reaksiyalara səbəb olub. Əksəriyyət Ramiz Mehdiyevin əməllərini suverenlik və milli təhlükəsizliyə təhdid kimi qəbul edir, hakimiyyət orqanlarının atdığı addımları isə dövlət quruluşunun qorunmasında vacib tədbir kimi dəyərləndirirlər.

Baş verən hadisələr yalnız bir cinayət işi deyil, bu, Azərbaycanın daxili siyasətində, onun geosiyasi mövqeyində və güc strukturlarında əhəmiyyətli bir dönüş nöqtəsidir. Ramiz Mehdiyevin planında çevriliş üçün xarici xüsusi xidmət orqanları ilə əməkdaşlıq etmək və hakimiyyəti zorla ələ keçirmək nəzərdə tutulurdu. Bu fəaliyyət rəsmi olaraq dövlətə xəyanət və konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönəlmiş hərəkətlər kimi qiymətləndirilib. DTX-nin açıqlamasında həmçinin Mehdiyevin 17 milyon manatdan artıq pul vəsaitini cinayət yolu ilə əldə etdiyi və leqallaşdırdığı iddia edilir ki, bu da məsələnin yalnız siyasi deyil, eyni zamanda maliyyə cinayətləri aspekti də daşıdığını göstərir.

Qeyd edək ki, son illərdə Azərbaycan açıq şəkildə "çoxvektorlu, lakin suveren prioritetli" siyasət modeli yürüdür. Türkiyə ilə strateji müttəfiqliyin dərinləşdirilməsi, Avropa İttifaqı ilə enerji əməkdaşlığının genişləndirilməsi, Rusiya ilə praqmatik, lakin bərabərhüquqlu münasibət xətti, regional məsələlərdə müstəqil qərarvermə kursu Azərbaycanın heç bir güc mərkəzinin orbitinə tam daxil olmamaq strategiyası kimi qiymətləndirilir. Məhz bu balans siyasəti bəzi xarici güc mərkəzlərində narahatlıq yaradır, çünki Cənubi Qafqaz geosiyasi rəqabətin intensiv olduğu regiondur. Belə olan halda xarici xüsusi xidmətlərin maraqları burada toqquşur. Tarixi və beynəlxalq təcrübə göstərir ki, böyük güclər strateji regionlarda təsir rıçaqlarını qorumağa çalışırlar. Enerji marşrutlarına nəzarəti vacib hesab edirlər, özlərinə yaxın siyasi fiqurlar və ya şəbəkələrlə işləyirlər.

Rəsmi açıqlamalara görə, "Ramiz Mehdiyev işi"nin mahiyyətində xarici strukturlarla işbirliyi var. Alternativ idarəetmə modeli təklif olunur, həm də kənar qüvvələrin əli və idarəçiliyi ilə. Bu, hadisə həm də xalqa xəyanətdir. Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etmək üçün ən dəyərli insanlarını, minlərlə vətəndaşını qurban verib. Bu nizamı pozmağa, müstəqilliyimizin itirilməsinə bais və səbəb olmağa kimsənin haqqı yoxdur və bu kimi cəhdlərin qarşısı mütləq şəkildə alınmalı və günahkarlar ən ağır cəzaya layiq görülməlidirlər.

Konstitusiya quruluşunun dəyişdirilməsinə yönəlmiş fəaliyyət dövləti cinayətdir. Əgər istintaq materiallarında deyildiyi kimi, bu hadisə Azərbaycanın müstəqil kursuna qarşı yönəlmiş təşəbbüsdür. Dövlət təhlükəsizlik strukturlarının müdaxiləsi isə suverenliyin qorunmasıdır. Azərbaycanın hazırkı siyasi kursu bir neçə səbəbə görə həssasdır. Regionda Rusiya–Qərb rəqabəti xeyli kəskinləşib, enerji təhlükəsizliyi məsələləri Avropa üçün prioritetə çevrilib, Türkiyə ilə hərbi ittifaq genişlənməkdədir, İran və digər regional aktorlar öz maraqlarını ortaya qoymaq niyyətindədirlər. Belə şəraitdə informasiya müharibəsi, siyasi təsir əməliyyatları, bəzi şəxslərin imkanlarını bir daha imtahana çəkmək cəhdləri risk olaraq qalır. Bu, beynəlxalq münasibətlərdə adi alətlər hesab olunur. Təhlükəsizlik diskursunun güclənməsindən sonra adətən dövlətlər xarici əlaqələr üzərində nəzarəti gücləndirir, maliyyə axınlarını daha ciddi monitorinq edir, strateji sahələrdə daxili təhlükəsizlik tədbirlərini artırır. Bu isə iki paralel nəticə doğura bilər, dövlətin institusional möhkəmlənməsi və siyasi və ictimai mühitdə daha sərt tənzimləmə. Balans burada əsas məsələdir. "Ramiz Mehdiyev işi" eyni zamanda xaricə verilən mesaj kimi də oxuna bilər. Azərbaycan öz daxili siyasi proseslərinə xarici müdaxiləni qəbul etmir və suveren qərarvermə hüququnu qorumağa hazırdır. Belə mesajlar xüsusilə regional güclər üçün nəzərdə tutulmuş ola bilər. Xarici xüsusi xidmətlərin Azərbaycanın müstəqil siyasətindən narahat olması nəzəri baxımdan mümkündür, çünki region strateji əhəmiyyət daşıyır və balans siyasəti böyük güclərin təsir imkanlarını məhdudlaşdıra bilər.

***V.VƏLİYEV***




# HƏLLEDİCİ "DÖYÜŞƏ" HAZIRLIQ

***İndiki Ermənistanda səs uğrunda mübarizədə "ölüm-dirim mübarizəsi" müşahidə olunur. Maraqlıdır ki, görəsən, haylar demokratiyanı belə başa düşürlərmi? Yəni, "ölüm-dirim mübarizəsi", yaxud da, anarxiya hayastanda demokratiya hesab olunurmu? Axı demokratiya heç də qarmaqarışıqlıq demək deyil. Heç bir cəmiyyət belə qarışıqlığı və xaosu demokratiya adlandırmayıb və adlandıra da bilməz.***

Müxalifət qüvvələri artıq bir neçə meddətdir ki, seçkilərdə niyə uduzduqlarını anlamağa çalışırlar. Hakim partiyanın əleyhdarları çılğıncasına cavab axtarırlar. Özlərinə hələ də sual verirlər ki, bu, nə idi? Təsadüf, yoxsa bədbəxtlik? Özlərinə bu sualı da verirlər ki, görəsən, 2026-cı il parlament seçkilərində də eyni şəkildə uduzsalar necə olacaq? Yəni, bəlkə bazarlıq edib özlərini hakimiyyətə baha qiymətə "satsınlar"? Bir sözlə, indi hansısa müstəvidə sanki bir "döyüş" gözlənilir.

Bu gün Ermənistan hökumətin öyünməsi üçün əlində nə isə bir şeyi var və ən azından müxalifətdən bir addım öndədir. Məsələn, Paşinyan komandası sosial infrastrukturun yenilənməsi kimi də olsa, hansısa bir cılız layihəni belə göstərə bilər. Axı erməni müxalifətinin belə bir şansı da yoxdur. "Üzə çıxaracaq" bircə dənə "əməl" sahibi deyillər axı. Bəli, kimsə etiraz edə bilər ki, bəs hakim partiya məğlub olub, müharibədə uduzub, diz çoküb və sair. Amma ən sıravi erməni belə bilir ki, bu məğlubiyyət çoxdandan gözlənilirdi və başqa cür mümkün də deyildi. Qüdrətli Azərbaycanın qarşısında çox aciz durumda olan Ermənistanın tab gətirməsi, özü də 44 gündən artıq dözə bilməsi mümkün deyildi. Üstəlik, ölkəmizə qarşı yumşaq şəkildə desək, haqsızlığın, ədalətsizliyin, əslində isə, böyük cinayətlərin və qanunsuzluqların kökü, təməli lap əvvəldən qoyulub və torpaq iddialı bu cəfəngiyyatın da, qanunsuzluğun da sonu belə olmalı idi. Belə də oldu. Elə isə, yəni, bütün bunları bilə-bilə bu nə iddiadır? Deməli, müxalifət indi sanki tarana gedir və buna döyüş belə desək, yanılmarıq.

Bu gün demək olar ki, Ermənistanın bütün siyasi qüvvələri əsas döyüşə – 2026-cı il parlament seçkilərinə hazırlaşır. Bəli, qarşı tərəfdəkilər hakimiyyətə meydan oxuya biləcəklərinə guya inanaraq, özlərində bir cəsarətli obraz da canlandırıblar. Ancaq yenə də müxalifətin parçalanması səbəbindən yekun nəticəyə o qədər də arxayın olmaq mümkün deyil. Görünən odur ki, müxalifətçilər və ümumiyyətlə hazırki hakimiyyətin əleyhində olanlar səylərini də birləşdirə bilmirlər və öz düşərgələrindən Paşinyana rəqib bir fiqur da müəyyən edə bilmirlər. Əsas pərdəarxası mübarizə təbii ki, Köçəryan, Sarkisyan və Karapetyan arasında gedir. Onların heç biri təslim olmaq istəmir. Hər biri yorğanı öz üzərinə çəkmək niyyətindədir. Bu qüvvələrin yaydan əvvəl birləşəcəyinə dair heç bir əlamət olmaması deyilənləri təsdiq edir. Bu o deməkdir ki, onların hamısı məhz "arabanı üç istiqamətdə çəkən qu quşu, durna balığı və xərçəng misalında" görünürlər. Mülki Müqavilə tərəfi bunu yaxşı bilir, ona görə də xüsusilə, qətiyyən narahat da deyillər. Üstəlik, hakimiyyət bəzi müxalif qüvvələrlə açıq şəkildə rişxəndlə sövdələşmə də aparır axı. Şanslarına real yanaşanlar sövdələşməyə razılaşır, növbəti Milli Məclisdə mandat müqabilində az da olsa, seçki resurslarını təklif edirlər. Digərləri isə, kortəbii şəkildə tarana, döyüşə gedir və nə olacağını zərrə qədər də düşünmür. Məsələ burasındadır ki, Paşinyanın bu yaxınlarda bəyan etdiyi kimi, 2018-ci ildə Ermənistan məhz təsir agentləri hazırkı müxalifət qüvvələri olan ölkənin cibində olub. Bu, bəlkə də şəxsən Paşinyanın xeyrinə olan əsas arqumentdir və 2026-cı ilin iyununda uduzacaqları döyüşə hazırlaşan rus kuklalarının tabutuna elə bil ki, son mismardır...

***İnam Hacıyev***

# İrəvanın yetirmələri - Mirzə Qədim İrəvani

***Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərində doğulub boya-başa çatan yüzlərlə elm, mədəniyyət, incəsənət, din xadimlərinin adları Azərbaycan tarixində yer alıb. Müxtəlif vaxtlarda İrəvanda olmuş səyyahlar, salnaməçilər, tədqiqatçılar İrəvan şəhərini Şərqin inkişaf etmiş elm və mədəniyyət mərkəzi kimi təsvir etmişlər. Mənbələrdə göstərilir ki, XIX əsrin əvvəllərində İrəvan xanlığının Rusiya qoşunları tərəfindən işğalından sonra İrəvanın imkanlı və ziyalı elitasının xeyli bir qismi şəhəri tərk etmişdir.***

Azərbaycanın elm və mədəniyyət mərkəzlərindən olan İrəvan şəhərində sənətkarlıq və tətbiqi sənət xüsusilə inkişaf etmişdi. İrəvanda boyakarlıq sənəti də inkişaf etmişdi. Mirzə Qədim İrəvani Azərbaycan rəngkarlığının təşəkkülündə əhəmiyyətli rol oynamış böyük sənətkarlardandır. Mirzə Qədim Məhəmmədhüseyn oğlu İrəvani 1825-ci ildə, İrəvan xanlığının paytaxtı, İrəvan şəhərində anadan olmuşdur. Xarrat Məhəmmədhüseynin ailəsinin yeganə uşağı idi. Elmi ədəbiyyatda, adı ilk dəfə 1954-cü ildə, sənətşünas Natalya Miklaşevskayanın İrəvaniyə həsr olunan məqaləsində hallanıb. Miklaşevskayanın sözlərinə görə, Mirzə Qədimin atası, Məhəmmədhüseyn adi xarrat yox, bədii ağac işlənməsi üzrə usta olub. Mikloşevskaya təxmin edir ki, Məhəmmədhüseyn ornament sənətini, öz yeganə oğluna lap kiçik yaşlarından öyrədib. Məhəmmədhüseynin oğluna təhsil vermək imkanı var idi və onu Tbilisi progimnaziyasına yollayıb. Erkən yaşlarından, rus mədəniyyəti ilə yaxın təmasda olan Mirzə Qədim rəssamlıq bacarıqlarını dərinləşdirmək imkanını alıb. Progimnaziyanı bitirdikdən sonra, 15 yaşlı gənc Mirzə Qədim İrəvana dönür və teleqrafçı vəzifəsində poçta qəbul olub orada 35 il ömrünün sonunadək çalışır.

Mirzə Qədim gənc yaşından rəsm çəkməyə başlayıb. Ailə əhvalatlarına əsasən, yeniyetmə dövründə güzgü üzərində boya ilə çəkdiyi “Qadın” portreti onun ilk işi olur. O xidmətdən ayrı olduğu bütün zamanını rəsmə ayırırdı. Özü tərəfindən edilən naxışlar onun işlədiyi otağın divarlarını bəzəyirdi. Ancaq onun yaşadığı ev dövrümüzə gəlib çatmayıb. Peşəkar rəssam təhsili olmasa belə, anadangəlmə zövqü və istedadı sayəsində, məşhurlaşmışdı. Artıq tanınmış rəssam olandan sonra, Sərdar sarayının divar naxışlarının restavrasiyası işlərinə cəlb olunur. Bu XIX əsrin 50-ci illərinin əvvəllərində baş verir. Bu sarayda o Güzgülü zalı bərpa etmişdi.

Deyilənə ğörə, İrəvani, bir qayda olaraq, bütün əsərlərini Azərbaycan və ya rusca imzalayaraq özünü “Mirzə Qədim İrəvani”, ya da bəzən “kollec asessoru” sözlərini əlavə edərək, özünü sadəcə “Qədim bəy” adlandırırdı. Onun tərəfindən real tarixi şəxsiyyətlərin: Fətəli şahın, Abbas Mirzənin, Mah Tələt xanım və Vəcdullah Mirzənin təsvir olunduğu dörd portret yaradılıb. Bu əsərlərdən başqa, “Naməlum savaşçı”nın portreti də çəkmişdi. Mirzə Qədim İrəvani işlərinin tarixini qeyd etmirdi, amma onları imzalamağa, eləcə də üzərlərində portreti çəkilənin adını yazmağı xoşlayırdı. Buna baxmayaraq, onun rəsmlərinin müqayisəli təhlili əsasında, rəssamın yaradıcılıq dövrlərinin ikişafını müəyyən etmək mümkün oldu. Rəssamın ilk portreti, boya ilə, güzgünün üzərində yerinə yetirildiyi bilindiyindən, Azərbaycan Milli İncəsənət muzeyində saxlanılan iki ədəd, şüşə üzərində işlənilən “Rəqqasə” və “Dərviş”əsərlərini də



birinci dövrə aid etmək olar. İrəvaninin naxışlarında gül və quşların əks olunduğu tərtiblər üstünlük təşkil edirdi. Rəssamın trafaret və şəkillər kolleksiyasında belə motivlər saxlanılıb. Onlar İrəvaninin Azərbaycan ornamenti və divar rəssamlığı ənənələri ilə yaxşı tanış olduğunu təsdiq edir.

Yaradıcılıq fəaliyyətinin erkən dövründə İrəvani əsasən tətbiqçi-rəssam kimi çıxış edirdi. Azərbaycan Milli İncəsənət Muzeyində tikmə üçün yüngülcə uzadılmış, səkkiz güşəliulduz və yarımdairə formasındna, özündən medalyon bantı təşkil edən iki trafaret saxlanılır. Rəsimlər kağızdan kəsilmiş medalyon və dairə formasında yerinə yetirilmişdir. Stilləşdirilmiş güllərdən ornament, qəti simmetrik şəkildə, medalyonun hər dördə bir hissəsini eyni naxışla doldurur. İkinci trafaret - 22,3 santimetr diametrində, dairənin dörddə-bir hissəsi formasında bir sektordur, o da həmçinin, üslublaşdırılmış güllü ornamentdir. Naxış balaca sininin (məcməi) üzərindəkilərini örtmək üçün istifadə olunan tikməyə (balaca örtük) təyin edilmişdir.

Qalan üç rəsim “Quşlar və çiçəklər”, “Qızılgül və qaranquş”, “Güllər və qırqovul” ayrı vərəqlərin üzərində yerinə yetirilib. Natalya Mikloşevskayanın sözlərinə görə, onlar yalnız divar naxışı kimi istifadə oluna bilərdilər.“Qızılgül və qaranquş” rəsminə bənzər güllü tərtiblərin variantları isə İrəvani tərəfindən, lak rəsmləri kimi, həm akvarel və tempera, eləcə də ayrı kağız vərəqlərinin üzərində yaradılırdı. “Güllər və qırqovul” rəsmində isə, xüsusən, qırqovullar realist və canlı təsir bağışlayırlar. Rəsm o dərəcədə əsaslı yerinə yetirilib ki, Mikloşevskayaya əsasən, iddia etmək olar ki, rəssam öz işinə çox böyük sevgi ilə yanaşıb.

Mirzə Qədim İrəvani restavrasiya olunan Sərdar sarayı üçün, təbii ölçüdə, yağlı boya ilə şah və sərdarların (şahın canişinləri) təsvir edildiyi dörd böyük portret yaratmışdır. Portretlər sarayın böyük zalının ikinci yarusunun divar oyuqlarında yerləşdirilmişdi. Portretlərdə Fətəli şah Qacar, Abbas Mirzə, Hüseynqulu xan Sərdar və təsvir olunmuşdu. Qohumlarının xatirələrinə əsasən, bunlara bənzər, Mirzə Qədimin otağında yerləşmiş, üzərlərində silahlı döyüşçülərin təsvir olunduğu (Sərdarların portletlərinin, rəssamın əlində qalan variantları olduqları təxmin edilir) daha dörd portret mövcüd olub. Rəssamın ailəsində bu cür rəsmləri “Pəhləvan” adlandırırdılar. Həmin rəsmlər yağlı boyalar ilə qalın kətan üzərində yaradıldığlarından, faktiki olaraq Azərbaycan panel rəssamlığının ilk nümunələri hesab olmaqdadırlar.

Tərzlərinə görə bu portretlər, XIX əsr üslubuna yaxındılar. Rəssamın ustalığının böyüməsini onun əsərlərini öyrəndikcə izləmək olur, əsasən Sərdarların portretlərində, hansılar ki Mikloşevskayanın sözlərinə görə həvəskar-rəssam üçün bir növ rəssamlıq məktəbi olmuşdur.

Rəssam insanın zahiri görünüşünə böyük maraq göstərirdi. Üzü şərti olan müstəvi ölçülər fonunda yox, konkret interyerin üç boyutlu məkanında təsvir edirdi. Həcmi-plastik modelləşdirmə formasının bu cür tədbiqi və modellə olan oxşarlığın ötürülməsi, yeni dövr Azərbaycan incəsənətində yetişən vacib dəyişikliklərin, şərti ənənələrin və yaslı təsvir etmənin aşılmasının göstəricisi idi. Mikloşevskaya rəssamın bir çox portretlərinə istinad edərək, Mirzə Qədimin döşəmənin perspektivini ötürməyə bacarmadığını işarə edir. Öz əsərlərində İrəvani üzləri və paltar qatlarını kölgələndirir, üstü adətən xalçalarla bəzədilmiş döşəmənin müstəvisini vertikal şəkildə perspektivsiz təsvir edir, eləcə də rəsmin mərkəzi hissəsində buta elementini özünə məxsus üslubda istifadə edirdi. Mirzə Qədimin təsvir üsulları müxtəlifdir, bunları qadın üzlərindəki zərif boyalar və qızılqül ləçəklərindən, geyim üzərindənki sıx qatlara kimi müşahidə etmək olar. Xüsusi ilə paltarın tikmə və qat elementlərində rəssam tərəfindən gözoxşayan sərbəst yaxma istifadə olunur. Təsvirin realistik ötürülməsini istəyən İrəvani materialın həcm və fakturasını qeyd edir. İrəvaninin rəsmlərinin boyalarına dözümlülüyü verən isə əsasən rəssamın seçdiyi yumurtalı tempera texnikası verir. Mirzə Qədim İrəvaninin Bakının İncəsənt Muzeyindəki əsərləri onun bir rəssam kimi yaxşı oramentalist olduğunu deyir.

Rus, fransız, fars dillərini bilən İrəvani dövrünün savadlı insanı olub, eləcə də, musiqini sevib, Qərbi Avropa, rus, şərq müəlliflərinin əsərlərindən ibarət kitabxanaya sahib olub. 1875-ci ildə kollec asessoru rütbəsində, doğma şəhəri İrəvanda vəfat edib və İrəvanda da dəfn edilmişdi, amma məzarı günümüzə gəlib çatmayıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

# RATİFİKASİYA: görünməyən, lakin real təhlükəyə qarşı QALXAN



***Zaman özü ilə bərabər dəyişiklikləri də həyatımıza gətirir. Dünən dünəndə qalır, bu gün isə artıq müasir dövrün tələblərinə cavab verən addımlar atılmalıdır ki, insan hər bir məsələdə məsuliyyətin, təhlükənin, səhvin, cəzanın, cərimənin nədən ibarət olduğunu anlasın. Müasir dövrdə texnologiyanın sürətlə inkişafı belə addımların atılmasını şərtləndirir.***

Dünən Milli Məclisin Birləşmiş Millətlər Təşkilatının “Kibercinayətkarlığa qarşı” Konvensiyasını ratifikasiya etməsi Azərbaycan üçün təkcə hüquqi sənədin təsdiqi deyil, həm də rəqəmsal dövrdə təhlükəsizlik anlayışına verilən mühüm siyasi və institusional cavabdır. İnformasiya texnologiyalarının həyatımızın bütün sahələrinə nüfuz etdiyi bir vaxtda bu addım cəmiyyət olaraq bizi yeni risklərdən qorumağı hədəfləyir: görünməyən, lakin real təhlükədən.

## Kibercinayət: Konvensiya nəyi vəd edir?

Bu gün kibercinayətlər artıq yalnız “haker hücumu” anlayışı ilə məhdudlaşmır. Bank kartlarından vəsaitlərin oğurlanması, şəxsi məlumatların ələ keçirilməsi, onlayn dələduzluq, uşaqların internet üzərindən istismarı, dövlət və media resurslarına hücumlar – bunların hamısı kibercinayətkarlığın real və gündəlik formalarıdır. Cəmiyyətin ən həssas təbəqələri – uşaqlar, yaşlılar, texnologiya savadlılığı zəif olan şəxslər isə bu təhlükələr qarşısında daha müdafiəsizdir.

Bəs Konvensiya bizə nə qazandırır? Birinci növbədə, hüquqi mexanizmlərin gücləndirməklə kibercinayətlərin anlayışını beynəlxalq standartlara uyğun şəkildə dəqiqləşdirir. Bu isə hüquq-mühafizə orqanlarına belə cinayətləri daha effektiv araşdırmaq, sübut toplamaq və təqsirkarları məsuliyyətə cəlb etmək imkanı verir.

Eyni zamanda Konvensiya beynəlxalq əməkdaşlığı da genişləndirir. Çünki kibercinayətlər çox zaman bir ölkənin sərhədləri ilə məhdudlaşmır. Server bir ölkədə, cinayətkar başqa ölkədə, zərərçəkən isə üçüncü ölkədə ola bilər. Konvensiya bu cür hallarda dövlətlər arasında operativ məlumat mübadiləsini, birgə istintaq və hüquqi yardımı asanlaşdırmaq məqsədilə əməkdaşlıq etməyi tövsiyə edir.

Vətəndaşların rəqəmsal hüquqlarının qorunması-şəxsi məlumatların təhlükəsizliyi, onlayn mühitdə toxunulmazlıq və məxfiliyin qorunması Konvensiyanın əsas prioritetlərindəndir. Bu, təbii ki, vətəndaşların internetdə daha güvənli fəaliyyət göstərməsinə şərait yaradır.

Uşaqların və gənclərin müdafiəsi istiqamətində də Konvensiya onlayn istismar, kiberzorakılıq və uşaqlara qarşı yönəlmiş cinayətlərlə mübarizədə dövlətlərə konkret öhdəliklər qoyur. Bu isə ailə və cəmiyyət üçün xüsusi əhəmiyyət daşımaqla yanaşı, uşaq və gənclərin inkişafı üçün təhlükəsiz mühiti şərtləndirir.

Ən vacib məqamlardan biri isə dövlət və iqtisadi təhlükəsizlikdir ki, rəqəmsal infrastrukturun qorunması bank sisteminin, dövlət qurumlarının, media platformalarının və strateji obyektlərin təhlükəsizliyi deməkdir. Konvensiya bu sahədə risklərin azaldılmasına xidmət edir.

## Ratifikasiya: vaxtında artılan addım

Azərbaycan rəqəmsal transformasiyanı yalnız texnoloji inkişaf kimi deyil, həm də təhlükəsizlik və məsuliyyət məsələsi kimi qəbul edir. Qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması gələcəkdə daha savadlı rəqəmsal cəmiyyətin formalaşmasına, vətəndaşların dövlətə və elektron xidmətlərə etimadının artmasına səbəb olacaq.

BMT-nin “Kibercinayətkarlığa qarşı” Konvensiyasının ratifikasiyası bizi görünməyən, amma ciddi təhlükələrdən qoruyan bir qalxandır. Bu sənəd cəmiyyət olaraq rəqəmsal dünyada daha güvənli, daha hazırlıqlı və daha məsuliyyətli olmağımıza xidmət edir. Unutmayaq ki, texnologiya inkişaf etdikcə risklər də artır. Ən vacib olan isə bu risklərə qarşı zamanında və ağıllı cavab verməkdir. Azərbaycan bu addımı atmaqla həmin cavabı vaxtında vermiş oldu.

***Mətanət Məmmədova***

# Vardanyan ağıllanıb, yoxsa növbəti erməni bicliyi edir?

***Bəşər tarixində insanlıq əleyhinə cinayətlər törətmiş çoxsaylı siyasi rəhbərlərin, hərbi komandirlərin adlarını çəkmək olar. Onu da qeyd etmək olar ki, vəhşiliklər törətmiş şəxslər gec də olsa ədalət mühakiməsinə veriliblər və layiq olduqları cəzanı alıblar. Misal olaraq, bir qrup əsas nasist hərbi canilərə qarşı qurulmuş hərbi tribunalı göstərmək olar. Almaniyanın Nürnberq şəhərində 1945-ci il noyabrın 20-dən 1946-cı il oktyabrın 1-dək davam etmiş Beynəlxalq Hərbi Tribunal tərəfindən faşist Almaniyasının ali dövlət və hərbi xadimləri ən ağır cəzaya layiq görülmüşlər.***

Belə ki, nasistlərdən İoahim fon Ribbentrop, Vilhelm Keytel, Ernst Kaltenbrunner, Alfred Rozenberq, Hans Frank, Vilhelm Frik, Yulius Ştreyxer, Frits Zaukel, Alfred Yodl, Artur Zeyss-İnkvart, Vilhelm Gerinq ölüm cəzasına məhkum olunmuşdular. Yaponiya vəhşi toplumuda törətdikləri bəşəri cinayətlərdən gizlənə bilməmişlər. Yapon cəlladlarına qarşı 1946-cı ilin may ayında qurulan və 1948-ci ilin noyabrında yekunlaşan beynəlxalq hərbi tribunalda Yaponiya imperiyasının yüksək hərbi və mülki rəhbərliyindən olan 29 nəfər mühakimə edilmişdir.

Tokio prosesində ittiham olunan 29 nəfərdən 7-sinə asılmaqla ölüm hökmü verilib. Bu siyahıya Yaponiyanın keçmiş iki baş nazirinin, Koki Xirota və Xideki Todzionun da adı düşüb. Bütün edamlar Suqamo həbsxanasının həyətində icra edilib. Məhkəmənin hökmü ilə 15 nəfərə ömürlük, 3 nəfərə isə 10-15 il azadlıqdan məhrumetmə cəzası verilib. İttiham olunanlardan iki nəfərə isə prosesin sonuna qədər yaşamaq qismət olmayıb. Onlardan biri psixoloji durumunda yaranmış problemlərdən ölüb, digəri isə intihar edib.

### Azərbaycanda əsrin “Nürnberq prosesi”

Nasistlərin törəmələrindən, barbarların nəslindən olan Ermənistan vətəndaşları olan vəhşilər Azərbaycan əhalisini də hədəfə almışlar. Onlar ötən əsrin 90-cı illərindən başlayaraq Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətmişlər. Ancaq 2020-ci ilin sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən Müharibəsi ilə erməni terrorçu toplumu tamamilə məhv edildi və Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. 2023-cü ilin sentyabrın 19-da həyata keçirilən antiterror əməliyyatları Qarabağda separatçılardan təmizləndi və terrorçu başbilənlərin böyük hissəsi həbs edilərək, hüquq-mühafizə orqanlarına təhvil verildilər. Onlara qarşı əsrin “Nürnberq prosesi”quruldu. Bakı Hərbi Məhkəməsində Ermənistan vətəndaşlarının davam etdirilən məhkəmə prosesində təqsirləndirilən şəxslərə hökm oxunub. Hökmə əsasən təqsirləndirilən Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan qəti olaraq ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum olunub. Digər erməni müttəhimlər Arkadi Qukasyanla Bako Sahakyan ayrılıqda 20, Madat



## *Bütün hallarda məhkəmənin ədalətli qərar verəcəyi gözlənilir*

Babayan, Melikset Paşayan 19, Qarik Maritosyan 18, Davit Allahveriyan və Levon Balayan 16, Vasili Beqloryan və Qurgen Stperayan, Erik Qazaryan isə 15 müddətinə azadlıqdan məhrum edilib.

Fevralın 10-da Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib. Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub. Azərbaycan dövləti adından zərərçəkmiş qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov çıxış edib. O, ittiham tərəfindən təqdim edilmiş, o cümlədən ittiham aktında qeyd olunmuş bütün faktlarla, dəlillərlə, sübutlarla razı olduğunu söyləyib və bunun nəzərə alınmasını məhkəmədən xahiş edib.

Daha sonra zərərçəkmiş şəxslərin hüquqi varisləri Azad Kərimov, Oqtay Şıxəliyev, Qədim Ağaxanov, Faiq Rüstəmov, Şiraslan Həsənov çıxış edərək təqsirləndirilən şəxsin ən ağır cəzaya - ömürlük həbsə məhkum edilməsini məhkəmədən xahiş ediblər. Cinayətkar ünsürün vəkili E.Babışov iş üzrə təqsirləndirilən şəxsin mövqeyini əsas götürərək cinayət işi ilə əlaqədar müdafiə nitqi ilə çıxış etməkdən imtina etdiyini söyləyib.

### Vardanyan Azərbaycan poeziyasının möhtəşəmliyini dəmir barmaqlıqlar arasında anlayıb

Onu qeyd etmək lazımdır ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

Diqqətçəkən məqam Rusiyanın xüsusi xidmət orqanlarının tapşırığı ilə Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağa gəlib separatçı çıxılar edən R.Vardanyanın son söz çıxışında səsləndirdiyi fikirlərdir. R.Vardanyan son söz çıxışında konkret məsələlərlə bağlı yox, ümumi sözlərlə danışıb. O, Azərbaycan Respublikası Cinayət Məcəlləsini oxuduğunu söyləyib. Bununla bir daha özünü “savadlı”, Azərbaycanın qanunlarından məlumatlı olduğunu göstərməyə çalışdı.

Vardanyan son söz çıxışında Qarabağa gəlib, əlaltı rolunda çıxış etməsindən peşman olduğunu göstərmək üçün dəridən-qabıqdan çıxdı. Gah ağlamsındı, gah da Azərbaycan mədəniyyətinə bağlı olduğunu, gah da Azərbaycan poeziyasını sevdiyini söylədi. Hətta dili dodağı əsə-əsə saxlanıldığı iki ildən artıq müddətdə özü üçün Azərbaycan poeziyasını kəşf etdiyini söylədi. R.Vardanyan Azərbaycanın dahi şairləri Məhəmməd Füzulinin şeirini və Hüseyn Cavidin poemasından bir hissəni rus dilində oxudu. Bundan sonra o, çıxışını yekunlaşdırıb.

Söz yox ki, iki il ərzində Vardanyan Böyük Azərbaycanın Uca millətinin misilsiz dəyərlər xəzinəsinə sahib bir millət olduğunu anlayıb. Onu da başa düşüb ki, separatçı fəaliyyət göstərməklə başından böyük səhvə, qəbahətə yol verib. Lakin onu qanmayır ki, artıq gecdir, mütləq layiq olduğu cəzanı alacaq.

***İLHAM ƏLİYEV***

TƏHLİL



# İtinə və pişiyinə ad günü keçirənlərə...

**Mətanət Məmmədova**

***Tez-tez Tiktokda, İnstagramda pişik və itinə ad günü keçirən insanlarla rastlaşıram. Elə dünən onlardan biri yenə itinə ad günü keçirirdi və ona tort da sifariş etmişdi. Şəklini də tortun üzərinə saldırmışdı. İtin əyni-başı da dəblə geyindirilmişdi. Bir sözlə, it ad gününə xüsusi olaraq hazırlanmışdı.***

### Bu mənzərə mənə nələri xatırlatmadı?..

Keçən günlərdən birində küçə ilə gedirdim, qarşıda da bir ana, yanında da iki uşaq gedirdilər. Bir də gördüm ki, uşaqlardan biri dayanıb. Ana nə qədər edir bu uşağı çəkib apara bilmir. Elə bil uşağın ayaqları yerə kilidlənmişdi. Mən də bunlara tamaşa edirəm, bilmək istəyirəm görüm nə olub axı. Baxıram ki, uşaq yaxınlıqda satılan kartof qutabından istəyir, “al da, ay ana, nə olar, al da”,- deyir, dəfələrlə təkrar edir. Ana isə sanki bu sözləri eşitmir. Gəl gedək, oğlum, alarıq. Sadəcə bu sözlər və dəfələrlə təkrarlanan yenə bu sözlər...

Vallah, mətləb mənə gün kimi aydın oldu. Amma risk edib yaxınlaşıb uşağa qutab ala bilmədim. Çünki anasının bunu necə qəbul edəcəyindən çəkindim. Həm də küçənin ortasında. Amma düz evə qədər ağlaya-ağlaya getdim.

* * *

Bir tanışım var. Bu yaxınlarda uşağının ad günü olacaqdı. Uşaq bəlkə də bir ay əvvəldən dayanmadan-durmadan “gələn ayın filan tarixində ad günüm olacaq”,- deyirdi. Hər dəfə də anasından “ana, mənə tort alacaqsan, hə”,-deyə soruşurdu. Anası da, “baxarıq”,- dedikcə uşaq bunun heç də onu qane etməyən cavab olduğu üçün yenə də sualını təkrarlayırdı: ana tort alacaqsan mənə? Bəlkə on dəfə təkrarlayırdı.

Mətləb aydındır. Daha sonra nə olduğunu söyləməyin yersiz olduğunu düşünürəm və söyləmirəm.

* * *

İllər öncə bir qonşum vardı. Təzə köçmüşdülər binaya. Necə deyərlər, qapı bir qonşu idik. Yaxşı qadın idi. Bir gün söhbət əsnasında məlum oldu ki, sabah onun ad günüdür. Mən də ona tort almağı düşündüm və aldım, apardım. O, tortu görəndə başladı ağlamağa. Sözün həqiqi mənasında, çox pis oldum. Bir anlığa nə üçün ağladığını düşünməkdən və min səbəb ağlıma gətirməkdən başqa çarəm olmadı. O isə ağlamağa davam edirdi. Qaldım belə. Nə edim, sadəcə baxıram, öz-özümə deyirəm ki, görək axırı nə olur.

Bir xeyli ağladı, sonra gözünün yaşını sildi, ayağa qalxdı, məni qucaqladı və dedi ki, bu gün 35 yaşım tamam olur. İlk dəfədir ki, ad günü tortum olur. Bu dəfə mən ondan da pis kövrəldim. Amma görməsin deyə göz yaşlarımı bayıra deyil, içəriyə axıtmalı oldum.

İtə keçirilən ad günü fonunda xatirələrim bir yana qalsın, hələ o saatlarda, dəqiqələrdə, anlarda minlərlə ehtiyaclı, illərlə tortun nə dadda olduğunu bilməyən uşaqları gözlərim önünə gətirdim. Kaş ki bunları çox tez-tez düşünə bilərdik. Kaş ki imkansızlıq ucbatından övladına tort, şirniyyat, oyuncaq nədir, çörək ala bilməyən insanları, uşaqları qarşısında gözükölgəli ata-anaları tez-tez xatırlaya bilərdik. Uşaq evlərində bəlkə də, yox, bəlkəsiz ad günləri qeyd olunmayan uşaqları bir anlıq xəyalımızdan keçirə bilərdik...

# Azərbaycan Televiziyası – 70

*Xalqın maarifləndirilməsi, əxlaqi-estetik tərbiyəsi, məlumatlandırılması kimi təməl prinsiplərini fəaliyyət məqsədinə çevirən televiziya yetişən nəsillərin müasirinə çevrilib. Azərbaycan Respublikası əhalisinin - bütövlükdə cəmiyyətin, habelə onun ayrı-ayrı təbəqələrinin sosial, elm, təhsil, mədəniyyət, əyləncə və digər sahələrdəki ümumi maraqlarını təmin edərək, söz və fikir azadlığını, müxtəlif baxış və əqidələri əks etdirən televiziya bütün informasiyaları, tədbirləri müasir texniki və keyfiyyət standartlarına uyğun şəkildə yayımlamaq kimi məqsədə xidmət göstərir.*

Hər gün milyonlarla insanla ünsiyyət yaradan, cəmiyyət həyatında əvəzsiz yer tutan televiziya yarandığı zamandan izləyicilərini ətrafında cəmləşdirib. Azərbaycanın və dünyanın ictimai-mədəni həyatında əhəmiyyətli hadisələri milyonlarla tamaşaçıya təqdim edərək hər kəsin məlumatlara əlçatanlığını təmin edib. Hər evdə, hər bir ocaqda bir ab-hava yaradıb. Belə ki, yarandığı zamandan milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyub inkişaf etdirən maarifləndirici, məlumatlandırıcı proqramlar vasitəsilə vətəndaşların maraqlarını təmin edir. Geniş tamaşaçı auditoriyası toplayan Azərbaycan televiziyası ölkə qanunvericiliyinə əsaslanaraq, informasiyanın tərəfsizliyi, qərəzsizliyi və doğrudürüstlüyünü əsas tutur. Yeni dolğun xəbərlərlə xalqımızı məlumatlandırır, hər hansı hadisəyə qərəzli, öz şəxsi mənafeyi baxımından yanaşmır. Xalqın yarım əsrdən artıq tarixi ilə birgə yol gələn Azərbaycan televiziyası keşməkşli günlərin də, xoş soraqların da tarixini əbədiləşdirib. Azərbaycan televiziyasının böyük bir dövrü Ulu Öndər Heydər Əliyevin ideyalarından bəhrələnib, cəmiyyətin ən müxtəlif təbəqələrinin arzu və maraqlarını əks etdirib. Bir çox nəzəriyyəçilərin və təcrübəli jurnalistlərin gəldiyi qənaətə görə, Ulu Öndər Heydər Əliyev teleradio ilə təbliğatın, əsasən, tarixi-siyasi, milli əxlaqi, elm-maarifçilik istiqamətlərinə öz çıxış və məruzələrində ideyalar verirdi. Azərbaycan və dünya müəlliflərinin əsərləri üzrə yüksək sənətkarlıq nümunəsi olan tamaşalar, bədii, sənədli və cizgi filmləri, seriallar, incəsənət əsərləri, mühüm tarixi və mədəni tədbirlər lentə alınaraq "Qızıl fond"da saxlanılır.

Azərbaycan televiziyası radiodan 30 il sonra – 1956-cı il fevralın 14-də fəaliyyətə başladı. İlk veriliş günü ekranda gənc aktrisa Nəcibə Məlikova göründü. Çıxışını "Göstərir Bakı!" kəlməsi ilə açan Nəcibə Məlikova tamaşaçıları televiziyanın fəaliyyətə başlaması münasibətilə təbrik edib. Həmin gün ekranda "Bəxtiyar" bədii filmi nümayiş etdirilib. Tarixi dövrünə nəzər salsaq görərik ki, 1957-ci ildən Azərbaycan televiziyası efirə həftədə 5 dəfə çıxmağa başladı və verilişlərin gündəlik həcmi 2 saat 20 dəqiqəyə çatdırıldı. 1962-ci ildə gündəlik efirə çıxan proqramların həcmi 7 saatadək artmışdı. 70-ci illərdən etibarən Azərbaycan televiziyasının gündəlik veriliş və proqramlarının yayım həcmi 10 saata, 80-ci illərdə 18 saata çatdırıldı. 2005-ci ilin yanvarından isə televiziya 24 saatlıq fasiləsiz yayıma keçdi. 1956-cı ildə Bakı televiziya studiyası və Radioinformasiya idarəsi ayrılıqda fəaliyyət göstərirdi. 1970-ci ildə televiziya Dövlət Televiziya və Radio Verilişləri Komitəsi statusu aldı. 1991-ci ildə komitə şirkətə çevrildi. 2005-ci ildən isə Azərbaycan Prezidentinin sərəncamı ilə şirkət "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə çevrildi.

## TELEVİZİYANIN SINAQ DÖVRÜ

1988-ci ildə Dağlıq Qarabağ münaqişəsinin başlanması Azərbaycan televiziyası üçün əsl sınağa çevrildi. Kommunist Partiyasının nəzarəti altında fəaliyyət göstərdiyindən və SSRİ daxilində başlayan münaqişəyə hazır olmadığından Azərbaycan televiziyası informasiya siyasətini qura bilmirdi. Separatçıların Xankəndidə keçirdiyi fasiləsiz mitinqlər barədə qısa xəbəri Azərbaycan televiziyası yalnız 10 gündən sonra – hökumətin icazəsi ilə "Qarabağda yaranmış vəziyyət" adı altında efirə verdi. Bakıda başlayan kütləvi nümayişlər zamanı da meydandan birbaşa yayıma TV iki gün gec başladı. Bu isə AzTV rəhbərliyinin Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirovun iradəsinin əleyhinə çıxması nəticəsində mümkün oldu. Azərbaycan televiziyasının əməkdaşları da xalqla birlikdə Qorbaçovun addımlarına qarşı çıxaraq Azərbaycan Konstitusiyasına, beynəlxalq hüquq normalarına əməl edilməsini, erməni separatçılarının qanunsuz hərəkətlərinin qarşısının alınmasını tələb edirdi. Azərbaycan televiziyası ilə çıxış edən siyasi icmalçılar Kremlin Azərbaycana qarşı apardığı siyasətin mahiyyətini, respublikamızda yaranmış idarə olunmaz ictimai-siyasi vəziyyəti, xalqın haqlı tələblər irəli sürdüyünü cəsarətlə dilə gətirirdilər. Moskvadan gələn emissarların Azərbaycan televiziyası vasitəsilə Kremlin Bakıya qoşun yeritməyəcəyi və fövqəladə vəziyyət elan etməyəcəyi barədə vədlərinə baxmayaraq, 1990-cı il yanvarın 19-da saat 19:26-da Azərbaycan televiziyasının enerji bloku partladıldı. Azərbaycan televiziyasının yayımını yalnız yanvarın 28-də bərpa etmək mümkün oldu.

## DÜNYA ÖLKƏLƏRİ İLƏ TELEKÖRPÜ

2004-cü ilin fevralından başlayaraq AzTV-nin proqramlarının Avropa ölkələrində daha keyfiyyətli yayımı təmin edildi. Bu məqsədlə Teleradio İstehsalat Birliyinin mütəxəssisləri teleqüllə kompleksində yeni rəqəmsal TV – Up-link stansiyasını quraşdırdılar. İndi Azərbaycan televiziyasının verilişləri həmin stansiyadan Avropaya "Hot Bird", Şimali Amerikaya "Galaxy 25", Asiyaya isə "Azerspace-1" peykləri vasitəsilə yayılır. 2007-ci ildə Avropaya yayımın texniki müvafiqliyinə görə Azərbaycan Televiziyası "Avropa keyfiyyəti" medalına layiq görülmüşdür.

Sonrakı illərdə Space TV, İTV və digər kanallar fəaliyyətə başladı. Bu gün Azərbaycan televiziyası və radiosu yeni dövrünü yaşayır. İctimai Televiziya müxtəlif məzmunlu proqramların, bir sıra beynəlxalq telelayihələrin Azərbaycanda eksklüziv yayımçısına çevrilib. Kann kinofestivalını, Vyana Filarmoniya orkestrinin konsertini, "World Music Awards", Olimpiya oyunları kimi bütün dünyada maraqla izlənən böyük layihələri Azərbaycan auditoriyasına, məhz İctimai Televiziya təqdim edib. 24 saat ərzində Azərspace və Hotbird peykləri vasitəsilə İctimai Televiziya və Radio dünyanın əksər ölkələrinə, www.itv.az ünvanlı internet saytı ilə bütün dünyaya yayımlanır.

Hazırda Azərbaycan Televiziyasında müxtəlif mövzularda tok-şoular, portret və səyahət verilişləri, musiqili-əyləncəli proqramlar, televiziya tamaşaları, sənədli və bədii filmlər nümayiş etdirilir. Televiziyanın analitik proqramları da kifayət qədərdir. 2009-cu il fevralın 1-dən efirə çıxan "İdman Azərbaycan" kanalı isə idman ictimaiyyəti və idmansevərlərə gözəl hədiyyə olub.

## ƏN GÜCLÜ TƏBLİĞAT SİSTEMİ

Azərbaycan televiziyası yarandığı zamandan informasiya liderliyini qoruyub-saxlaya bilib. Neçə-neçə onilliklər arxada qalıb. Sirli-soraqlı dünyamızdan bizlərə məlumatları çatdıran televiziyamız bu illərdə, qərinələrdə olan tariximizin keşməkeşli, uğurlu zamandan tamaşaçısına danışıb. Bəzən sevindirib, bəzən kövrəldib, bəzən də tariximizin dönəmində bizləri düşündürüb. Nələri bizə təqdim etməyib. Diqqətimizi ondan çəkməmişik. Axı əsrlərin tarixindən süzülüb gələn ulu babalarımızın yaşadığı zaman, bu günün həqiqətləri ilə bizləri böyük bir xalqın keçdiyi yol ilə baş-başa qoyub. Müxtəlif məzmunlu proqramlar hazırlayarkən cəmiyyətdəki siyasi əqidələri, dini baxışları, ictimai fikir və rəyin müxtəlif cərəyanlarını, habelə, ölkə vətəndaşlarının hüquq bərabərliyini nəzərə alır. Bu gün də Azərbaycan televiziyasına maraq azalmayıb və hər gün dinlədiyimiz xəbərlər bizə ölkəmizin ictimai-siyasi mədəni həyatı ilə bağlı əhəmiyyətli hadisələri çatdırır. 44 günlük Vətən müharibəsindən xəbərləri Azərbaycan televiziyasından aldıq. Azərbaycan televiziyası xoş müjdələrlə bizləri sevindirdi. Azərbaycan Ordusunun uğurlu əməliyyatlarından bizə məlumat verdi, qələbə sorağını verdi. Füzulinin, Cəbrayılın, Zəngilanın, Şuşanın və başqa ərazilərimizin işğaldan azad olunma xəbərini çatdırdı. Qəhrəman oğullarımızın şücaətindən danışdı. Zəfərimizi dinlədikcə sevinc göz yaşımızı saxlaya bilmədik. Bizim yol yoldaşımız olan bu gün öz sözünü deyə bilən, öz fərqli dəstixətti ilə seçilən, ən güclü təbliğat sisteminə çevrilən televiziyamız hələ bundan sonra da xalqın milli tarixi, gələcəyi, Azərbaycanın dinamik inkişafı, uğurları, beynəlxalq mövqeyi ilə bağlı bizə çox xəbərləri çatdıracaqdır.

***Zümrüd BAYRAMOVA***



# Antibiotiklər ildə 5 milyon insan öldürür

***Bakteriyalar, təbii olaraq, onları öldürmək üçün nəzərdə tutulmuş dərmanların effektivliyini azaltmaq üçün təkamül edir. Lakin, antibiotiklər tibbdə və ya kənd təsərrüfatında həddindən artıq istifadə edildikdə və ya səhv istifadə edildikdə, bu təzyiqlər müqavimət prosesini sürətləndirir.***

Təkcə ABŞ-da hər il 2,8 milyondan çox davamlı infeksiya baş verir və qlobal miqyasda bu problem ildə təxminən 5 milyon ölümlə əlaqələndirilir. Antibiotiklərə dözümlü bakteriyaların yayılması ilə infeksiyaların müalicəsi daha çətinləşir və adi əməliyyatlar daha riskli olur. 1910-cu ildə sifilisin müalicəsində istifadə edilən sintetik dərman olan salvarsan preparatının buraxılması ilə antibiotiklərin tətbiqindən bəri alimlər müqavimət yarana biləcəyindən narahat idi. Qlobal miqyasda aparılan araşdırmaya görə 2050-ci ilə qədər 39 milyondan çox insan antibiotiklərə davamlı infeksiyalardan ölə bilər.

Tədqiqatın müəllifləri 2022-ci ildən 2050-ci ilə qədər antimikrob müqavimətinə görə ölüm hallarının təxminən 70 faiz artacağını, ən çox risk altında yaşlıların olacağını və ölüm hallarının artmasına səbəb olacağını təxmin edirlər. Bu müqavimət, həmçinin AMR kimi də tanınır, bakteriya və göbələk kimi mikrobların mövcud dərmanlarla öldürülməsini çətinləşdirən şəkildə inkişaf etdikdə baş verir. Tədqiqatın baş müəllifi Kristofer J. L. Murrey deyir: "Bu, böyük bir problemdir və təəssüf ki, bu, daimi problem olacaq." Bu, həmçinin kimyaterapiya və qeysəriyyə kəsiyi kimi tibbi müdaxilələri daha riskli edəcək.

Araşdırmaya görə yaxın gələcəkdə dünya əhalisi qarşılacağı infeksion xəstəliklərin antibiotikə davamlı olması sürətlənəcək. Bəzən həkimlər hər hansı bir infeksion xəstəliyin müalicəsinə geniş spektrli antibiotiklə başlayırlar. Bu dərmanlar müxtəlif növ bakteriyaları eyni anda öldürür ki, bu da doğru deyil. Bizim bədənimizdə bir çox bakteriya yaşamağımız üçün vacibdir, onlar bəzi hallarda həyat qurtara bilər, lakin, xəstəliyin müalicəsi zamanı onlar da antibiotiklərə məruz qalırlar. Əgər dar spektrli antibiotiklərlə yalnız kiçik bir qrup bakteriya hədəf alınsa faydalı bakteriyalar üçün təhlükə olmaz. Bu tip antibiotiklər infeksiyaya yoluxmada iştirak etməyən bakteriyaları narahat etmədən infeksiyanı müalicə edir.

Lakin, infeksiyaya səbəb olan bakteriyaları dəqiq müəyyən etmək bir neçə gün çəkə bilər. Bu gözləmə dövrü bəzən xəstənin ağırlaşmasına səbəb olduğu üçün həkimlərin geniş spektrli müalicəyə başlamaqdan başqa çarələri olmur. İndi genom ardıcıllığı, mikrofluidika və süni intellekt alətlərindəki irəliləyişlər bakteriya növlərini və onlarla mübarizə aparmaq üçün effektiv antibiotikləri günlər əvəzinə saatlar ərzində müəyyən etməyə imkan verir. Proqnozlaşdırıcı vasitələr hətta müqavimətin təkamülünü də qabaqcadan görə bilir.

Bu sürət həkimlərə yalnız hədəfdəki bakteriyaları öldürən "dar spektrli" dərmanlardan inamla istifadə etməyə imkan verərək müqavimətin inkişafını zəiflədir. Ümidverici tibbi yanaşmalardan biri də zərərli bakteriyaları yoluxduran və öldürən viruslardan istifadə edən bakteriofaq terapiyasıdır. Bu üsulla faydalı bakteriyalar zərər görmür. Tədqiqatçılar həmçinin müqavimət genlərini dəqiq şəkildə deaktiv etmək üçün gen redaktə vasitələrindən istifadə edən CRISPR əsaslı antimikroblar hazırlayırlar. Alimlər antimikrobları birbaşa infeksiyaya yönəldə bilmək üçün nanohissəcik sistemləri də hazırlayırlar. Bundan əlavə mikrobiom terapiyaları da inkişaf etdirilir, sağlam bakteriyaları bərpa etməklə patogenlərin çoxalmasının qarşısını almaq üçün tədqiqatlar aparılır. Bu variantların çoxu hələ də erkən mərhələlərindədir və bakteriyalar zamanla onlara qarşı müqavimət inkişaf etdirə bilər.

Antibiotik müqaviməti yalnız xəstəxanalarda yayılmır. O, insanlar, vəhşi təbiət, bitkilər, çirkab suları, torpaq və qlobal ticarət şəbəkələri vasitəsilə də yayılır. Kənd təsərrüfatında istifadə edilən antibiotiklər müqavimətli bakteriyalar yaradır və sonra onlar insanlara ötürülür. Müqavimət genləri çirkab su sistemlərindən çaylara sızaraq ətraf mühiə nüfuz edir. İndi dünyada qəbul edilir ki, həll yolu təkcə tibb dünyasında deyil, həm də mühəndislik, kənd təsərrüfatı və ictimai səhiyyə sahələrinin birgə işindədir.

***Lalə Mehralı***

SON SƏHİFƏ

SƏS

13 fevral
2026-cı il

ARAŞDIRMA

# Erkən nikahların səbəbləri və nəticələri



*Bugünkü dünyada insan hüquqları, təhsil və gender bərabərliyi sahəsində mühüm addımlar atılsa da, erkən nikahlar hələ də bir çox cəmiyyətlər üçün aktual problem olaraq qalır. Xüsusilə yeniyetmə yaşlarında bağlanan nikahlar uşaqların fiziki, psixoloji və sosial inkişafına ciddi təsir göstərir. Erkən nikah problemi təkcə fərdi ailə qərarı deyil, daha geniş sosial, iqtisadi və mədəni faktorların nəticəsidir.SİA mövzu ilə bağlı araşdırma aparıb.*




## Erkən nikah nə üçün hələ də davam edir?

Mütəxəssislərin fikrincə, erkən nikahların davam etməsinin əsas səbəbi bu problemin yalnız hüquqi deyil, eyni zamanda dərin sosial köklərə malik olmasıdır. Qanunvericilikdə müəyyən məhdudiyyətlər mövcud olsa da, real həyatda ailə və icma təzyiqləri bu qaydaların pozulmasına yol açır.

Bir çox hallarda erkən nikah "təhlükəsizlik", "ailə namusu" və ya "sosial sabitlik" adı altında əsaslandırılır. Bu yanaşma isə uşağın fərdi inkişafını və hüquqlarını ikinci plana keçirir.

## Sosial faktorlar: ənənə və ictimai təzyiq

Erkən nikahların davam etməsində sosial mühitin rolu həlledicidir. Bəzi icmalarda qız uşağının müəyyən yaşdan sonra subay qalması mənfi qarşılanır və ailələr cəmiyyətin qınağından çəkinərək erkən nikaha üstünlük verirlər.

Valideynlər çox zaman bu qərarı uşağın gələcəyini "təhlükəsizliyə almaq" kimi təqdim etsələr də, əslində bu, sosial stereotiplərin və köhnəlmiş gender rollarının nəticəsidir. Qızların əsas rolunun ailə qurmaq olduğu düşüncəsi erkən nikahları normallaşdırır.

## İqtisadi faktorlar: yoxsulluq və çıxışsızlıq

İqtisadi çətinliklər erkən nikahların əsas hərəkətverici qüvvələrindən biridir. Aztəminatlı ailələr üçün erkən nikah bəzən maddi yükdən qurtulma yolu kimi qəbul edilir. Xüsusilə çoxuşaqlı ailələrdə valideynlər qız övladının erkən ailə qurmasını iqtisadi rahatlıq kimi dəyərləndirə bilirlər.

Təhsilin davam etdirilməsi üçün maddi imkanların məhdud olması da bu prosesi sürətləndirir. Məktəbdən ayrılan qız uşaqları üçün erkən nikah alternativ "çıxış yolu" kimi görünür. Beləliklə, yoxsulluq təhsilsizliyi, təhsilsizlik isə erkən nikahı qidalandıran qapalı bir dövr yaradır.

## Mədəni və dini yanlış interpretasiyalar

Erkən nikahların bəzi hallarda mədəni və dini dəyərlərlə əsaslandırılması probleminin daha da dərinləşməsinə səbəb olur. Əslində, bir çox dini və mədəni dəyərlər uşaqların rifahını və sağlam inkişafını ön plana çıxarsa da, bu dəyərlərin yanlış yozumu erkən nikahları legitimləşdirir. Ənənə adı altında ötürülən davranış modelləri zamanla dəyişmədikdə, erkən nikah normal və qəbul edilən bir praktikaya çevrilir. Bu isə nəsildən-nəslə ötürülən problem yaradır.

## Erkən nikahların nəticələri

Erkən nikahlar uşaqlar üçün ciddi fiziki və psixoloji risklər yaradır. Erkən yaşda hamiləlik ana və uşaq sağlamlığı üçün təhlükəli hesab olunur. Psixoloji baxımdan isə yetkin olmayan fərdlər ailə məsuliyyətini daşımaqda çətinlik çəkir, bu da zorakılıq, depressiya və sosial təcrid hallarını artırır.

Təhsilin yarımçıq qalması qadınların əmək bazarına çıxışını məhdudlaşdırır və uzunmüddətli iqtisadi asılılıq yaradır. Bu da cəmiyyətin ümumi inkişaf tempinə mənfi təsir göstərir.



## Problemin həlli yolları nələrdir?

Mütəxəssislər hesab edirlər ki, erkən nikahlarla mübarizə yalnız cəzalandırıcı tədbirlərlə məhdudlaşmamalıdır. Əsas diqqət maarifləndirmə və sosial dəstək mexanizmlərinə yönəlməlidir.

Təhsilin əlçatanlığının artırılması, xüsusilə qız uşaqlarının məktəbdə saxlanılması erkən nikah riskini əhəmiyyətli dərəcədə azaldır. Ailələr üçün sosial dəstək proqramları və iqtisadi imkanların genişləndirilməsi də bu problemin kökündən həllinə kömək edə bilər.

Bununla yanaşı, icma liderləri, müəllimlər və media erkən nikahların fəsadları barədə cəmiyyətə düzgün mesajlar ötürməlidir. Davranış dəyişikliyi olmadan hüquqi tədbirlərin effektivliyi məhdud qalır.

## Nəticə...

Erkən nikahların davam etməsi təsadüfi deyil - bu problem sosial təzyiqlər, iqtisadi çətinliklər və mədəni stereotiplərin kəsişməsində formalaşır. Problemin həlli üçün kompleks yanaşma, uzunmüddətli siyasət və cəmiyyətin bütün təbəqələrinin iştirakı vacibdir. Erkən nikahların qarşısının alınması təkcə uşaqların deyil, bütövlükdə cəmiyyətin gələcəyinin qorunması deməkdir.

***Günel Fərzəliyeva***

**"SƏS" qəzetinə abunə kampaniyası davam edir!**



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

**TƏBRİK EDİRİK!**

ŞƏKİ DÖVLƏT PEŞƏ TƏHSİL MƏRKƏZİ

**Biz, ŞDPTM-nin müdriyyəti, istehsalat təlim ustaları, müəllimləri, texniki işçiləri olaraq, müəssisəmizin İTU-su, kompüter proqramisti, Şəki daxili bir çox şahmat üzrə yarışmaların qalibi və mükafatçısı Mayisə müəllimi ad günü münasibəti ilə təbrik edir, uzun ömür, cansağlığı arzulayırıq.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur

**Tiraj: 2000**